AZƏRBAYCAN  MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**DÜRDANƏ SƏHLƏDAR qızı YUSİFOVA**

# GƏNCƏ – QAZAX BÖLGƏSİNİN ORTA ƏSR DİNİ ABİDƏLƏRİ

**5505.02 - Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A VT O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Arif Məhəmməd oğlu Məmmədov**
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Hidayət Fərrux oğlu Cəfərov**
*tarix üzrə elmlər doktoru, professor*

**Bəhlul İmran oğlu İbrahimli**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət
Pedaqoji Universitetinın
"Ümumi tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 – "Arxeologiya") dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 Dissertasiya Şurasının "____" ______________ 2017-ci il iclasında saat_____ da keçiriləcəkdir.

**Ünvan: Az. 1143, Bakı şəhəri, H.Cavid prospekti 115**

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür

Avtoreferat ____________ 2017 – ci ildə göndərilmişdir.

**F/D. 01.171**
**Dissertasiya Şurasının** **Səfər Hüseyn oğlu Aşurov**
**elmi katibi** *tarix üzrə fəlsəfə doktoru*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dissertasiya işi, Gəncə-Qazax bölgəsinin orta əsr dini abidələri və onların yerləşdiyi ərazilərdə arxeoloji qazıntı və kəşfiyyat işləri zamanı əldə edilmiş maddi mədəniyyət nümunələrinin elmi tədqiqinə həsr olunmuşdur. Gəncə-Qazax bölgəsinin yerləşdiyi təbii-coğrafi şərait, bol sulu çaylar, zəngin bitki və heyvanat aləmi, münbit torpaqlar, beynəlxalq ticarət yollarının bu ərazilərdən keçməsi bu bölgədə insanların məskunlaşmasına şərait yaratmışdır. Əhalinin sıx məskunlaşdığı ərazilərdə dini abidələrin çoxluğu isə təbii haldır. Əsərdə tədqiq olunan abidələrin müqayisəli təhlili və təsnifatı verilmiş, bunun əsasında Azərbaycanın Gəncə - Qazax bölgəsinin orta əsrlər dini abidələrində, aparılan tədqiqatların ümumiləşdirilməsinə cəhd göstərilmişdir. Tədqiq etdiyimiz dövr Azərbaycanın orta əsrlər dövrünün bütün mərhələlərini əhatə edir. Bu nöqteyi–nəzərdən dini abidələr tarix boyu sosial, mədəni-dini durumun obyektiv işıqlandırılmasına imkan verməklə yanaşı bölgənin Azərbaycan tarixində tutduğu yerini müəyyənləşdirməsi baxımından aktuallıq kəsb edir. Tədqiqat zamanı, bütpərəst, xristian və İslam dövrü abidələri xronoloji ardıcıllıqla öyrənildiyindən, dissertasiya işi əhatə etdiyi bütün orta əsrlər boyu Azərbaycan xalqının mənəvi mühitinin formalaşması prosesinin izlənilməsi baxımından, mühüm əhəmiyyət kəsb edir və mövzunun aktuallığını daha da artırır.

Azərbaycanda feodalizm yarandığı ilk dövrlərdə, IV əsrdə Alban feodallarının mənafeyinə uyğun olan xristianlıq, əhalinin bir qismi arasında yayılıb dövlət dininə çevrilsə də, atəşpərəstlik öz əhəmiyyətini saxlamış və ərəblər gəldikdən sonra isə əhalinin əsas hissəsi İslam dinini qəbul edib müsəlmanlaşmışdır. Lakin, bununla yanaşı, bütpərəstlik dininin qalıqları da uzun müddət davam etmişdir. Bütün bu hadisələr bölgənin sosial-mədəni durumuna müəyyən təsir göstərmişdir. Orta əsrlərin ilk mərhələsində, Qafqaz Albaniyasında xristianlığın yayılması, təşəkkülü və dövlət dininə çevrilməsi haqqında çoxlu sayda tədqiqat əsərləri yazılmasına baxmayaraq, Alban xristian dini abidələrinin tədqiqi məsələsi öz aktuallığını saxlamaqdadır. Bunun bir çox səbəbləri vardır. Dövrümüzə qədər gəlib çatmış zəngin Alban xristian abidələrinin heç də hamısı qeydə alınmamış və

tarixi – arxeolji baxımdan tədqiq olunmamışdır. Qafqazda xristianlığın ilk yayıldığı və təşəkkül tapdığı məkan məhz Qafqaz Albaniyasının ərazisi olduğuna baxmayaraq, burada yaradılmış zəngin dini mədəniyyət bir çox tədqiqatlarda təhriflərə məruz qalmışdır. Qafqaz Albaniyasının tarixi ərazilərinin qərb hissəsi hazırda Ermənistanın işğalı altında olduğundan alban xristian dini abidələrinin tədqiqi və tarixi taleyi problem kimi elmi aktuallığını saxlamaqdadır. Qafqaz Albaniyasının tarixi vilayətlərinin bir qismi hazırda Gürcüstan Respublikasının hüdudlarına daxil olduğu üçün buradakı Alban xristian dini abidələri, xüsusilə məbədlər əksər hallarda gürcü dini abidələri adı altında təhrif və təqdim olunur. Bütün belə hallar adı çəkilən ərazilərlə qonşuluqda yerləşən Gəncə-Qazax bölgəsinin orta əsr dini abidələrinin tədqiqini gündəmə gətirir.

Gəncə - Qazax bölgəsinin orta əsr abidələrində aparılan arxeoloji tədqiqatlar zamanı da, bölgənin sosial dini mühitindən xəbər verən dini memarlıq abidələri haqqında yalnız pərakəndə məlumatlar verilmiş, bu iş kompleks şəkildə yerinə yetirilməmişdir. Müxtəlif növ qəbirlər, xristian məbədləri, islam dövrünə aid məscid, türbə, ziyarətgahlar və s. abidələrin yerləşdikləri ərazilərdə arxeoloji tədqiqatlar aparılsada, boşluqlar qalmaqdadır.Yerli əhalinin həyat tərzi, dini görüşləri və s. haqqında qiymətli məlumatlar verən arxeoloji və etnoqrafik tədqiqatlar həmin boşluğun doldurulmasında fakt olaraq mühüm yer tutur. Məhz buna görə də Gəncə -Qazax bölgəsinin dini tarixi – arxeoloji abidələrinin tədqiqi böyük əhəmiyyətə malikdir. Belə ki, bu dövrdə Xalxal, Xunan və s. kimi ilk orta əsr yaşayış məskənləri, Qafqaz Albaniyasının siyasi – iqtisadi və mənəvi həyatında böyük əhəmiyyət kəsb etməsidir. Çünki, bu şəhərlər Bərdədən Tiflisə gedən ticarət yolunun üstündə salındığından əhalinin sıx məskunlaşdığı belə yerlərdə dini abidələrin olması labüd idi.

Dissertasiya işi yazılarkən Azərbaycanın başqa bölgələrindəki orta əsr dini abidələrinin yerləşdikləri ərazilərdə, aparılmış arxeoloji tədqiqatların nəticələri, qonşu ölkələrdən əldə olunmuş sinxron materiallar, yazılı mənbələrin verdiyi məlumatlar, habelə müvafiq elmi ədəbiyyatlar, hesabatlar, tədqiqat işinə cəlb olunmuşdur. İndiki Ermənistan və Gürcüstan Respublikası ilə həmsərhəd olduğundan, Gəncə-Qazax bölgəsindəki dini abidələrin dərindən öyrənilməsi

xüsusi əhəmiyyət kəsb edir ki, indiki zamanda da buna çox böyük ehtiyac vardır. Bu cür tutarlı məntiqi, elmi dəlillər erməni və gürcü qonşularımızın bizə qarşı irəli sürdükləri əsassız ərazi iddialarının qarşısının alınmasında bir vasitə ola bilər.

**Tədqiqat işinin xronoloji çərçivəsi.** Dissertasiya işinin xronoloji çərçivəsinin orta əsrlərin bütün mərhələlərini əhatə etməsi, Gəncə-Qazax bölgəsinin bu dövrə aid abidələrinin yerləşdikləri ərazilərdəki arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət qalıqları ilə əlaqəli olmuşdur. Tədqiqat işində bölgənin ilk orta əsrlərdə Sasani imperiyasının tərkibində olması, VII əsrin ikinci yarısından etibarən, ərəblərin gəlişi ilə ümumislam mədəniyyətinə qovuşması və bu xronoloji ardıcıllıqla dini mənəvi mühitdə baş verən proseslərin izlənilməsi mümkün olmuşdur. Dissertasiya işində tədqiqata cəlb olunmuş atəşpərəstlik, xristian məbədlərinin, İslam ənənəsinə uyğun olaraq məscid, qəbirüstü və memorial abidələrin, pirlərin, maddi mədəniyyət nümunələri əsasında ardıcıl tədqiqi mühüm yer tutur. Bu xronoloji çərçivə daxilində tədqiqat aparılmasında məqsəd bölgənin mənəvi mühitində və dini dünyagörüşündə əsas yer tutan, orta əsr dini abidələrinin Azərbaycan xalqının mədəni irsindəki yerini izləməkdən ibarətdir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini, Gəncə - Qazax bölgəsinin ilk orta əsr və orta əsrlərin bütün mərhələlərinə aid dini abidələri, məbəd, məscid, qəbir abidələri və memorial abidələr, həmçinin pirlər, onlar ətrafında aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələri və. s təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi, Gəncə-Qazax bölgəsinin orta əsr dini abidələri haqqında düzgün elmi tarixi, arxeoloji və etnoqrafik biliklərin toplanılaraq elmi dövriyyəyə daxil edilməsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsidir. Təqdim edilən dissertasiya işində Samux, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa rayonlarının maddi mədəniyyət nümunələri əsasında, orta əsrlərdə bölgənin sosial, dini-ideoloji və mənəvi durumuna dair müəyyən təsəvvür yaratmaq qarşıda duran məqsədlərdəndir. Bu bölgənin orta əsr dini abidələri haqqında geniş məlumat vermək, bölgə əhalisinin dini dünyagörüşünü faktlar əsasında aydınlaşdırmaq, ilk orta əsrlər

dövründəki məbədlərin, orta əsrlərdə mövcud olmuş islam dövrü abidələrinin təsnifatını vermək, bu abidələrin tarixi-arxeoloji baxımdan memarlıq xüsusiyyətlərini şərh etmək, Cənubi Qafqaz və Mərkəzi Asiyanın başqa regionlarının analoji abidələri ilə müqaisəli təhlilini vermək, onların oxşar və fərqli cəhətlərini göstərmək, tarixi-arxeoloji, etnoqrafik materiallar üzrə dini abidələri xarakterizə etmək dissertasiya işində qarşıya qoyulan əsas vəzifələrdir .

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində Gəncə - Qazax bölgəsinin orta əsr dini abidələrinin, ilk dəfə olaraq kompleks şəkildə tədqiq edilməsi işin elmi yeniliyidir. Bu abidələr konfessional fərqlərlə və dövrlər üzrə qruplaşdırılır. Tədqiqatda istifadə olunan materialların bir hissəsi bölgədə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş və ilk dəfə olaraq mövzuya cəlb olunmuşdur. Dissertasiya yazılarkən bölgənin orta əsr abidələrində aparılmış arxeoloji qazıntıların nəticələrinə və etnoqrafik səfərlərə həsr olunmuş elmi hesabatlardan, konfrans materiallarından, mövzuya dair ədəbiyyatlardan ümumi şəkildə istifadə edilmiş və tədqiq olunan materialların müqaisəli təhlili verilmişdir. Bu maddi mədəniyyət nümunələri respublikamızın başqa regionlardan əldə olunmuş həmdövr materialları ilə müqaisə edilmişdir. Yazılı mənbələrin verdiyi məlumatlarla arxeoloji və etnoqrafik tədqiqatların nəticələri uzlaşdırılmışdır.

-Gəncə-Qazax bölgəsinin orta əsr dini abidələri ilk dəfə olaraq tarixi, arxeoloji baxımdan sistemli şəkildə dissertasiya səviyyəsində araşdırılaraq, elmi tədqiqata cəlb edilmişdir.

-Bölgənin orta əsrlərin bütün mərhələlərinə aid dini abidələri, (Gəncə, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Göygöl) həm arxeoloji və etnoqrafik, həm də memarlıq xüsusiyyətləri baxımından əlaqəli şəkildə araşdırılmışdır.

-İslam dövrü dini abidələrinin hərtərəfli təhlili nəticəsində, qəbirüstü abidələrin xüsusiyyətləri vurğulanmışdır.

-Orta əsrlərdə qəbirüstü abidələr üzərindəki təsvirlər (nəbati, həndəsi, ornamentlər) hərtərəfli və müqayisəli təhlil edilmiş, xalqımızın dini dünyagörüşü adət-ənənələri, inancları və onların semantikası müəyyənləşdirilmişdir.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqatda bölgənin dini abidələri, həm arxeoloji, tarixi, həm də memarlıq xüsusiyyətləri

nəzərə alınmaqla tipoloji, tarixi – müqaisəli təhlil, təsvir, təsnifat və elmi-tarixi ümumiləşdirmə metodlarından istifadə edilərək öyrənilmişdir.

**Mövzunun araşdırılması səviyyəsi.** Ümumilikdə, dissertasiya işlənərkən tədqiqatçı alimlərdən Z.M.Bünyadov, T.Ə.Bünyadov, İ.M.Cəfərzadə, R.M.Vahidov, S.M.Qazıyev, Q.S.İsmayılzadə, İ.A.Babayev, V.H.Əliyev, M.N.Nemətova, C.A.Xəlilov, N.İ.Rzayev, F.C.Məmmədova, R.B.Göyüşov, F.M.Muradova, C.N.Rüstəmov, Q.C.Cəbiyev, A.M.Məmmədov, S.H.Aşurov, B.İ.İbrahimli, N.Ə.Müseyibli, M.C.Xəlilov, A.İ.Ələkbərov, K.M.Məmmədzadə, G.H.Məmmədova, T.V.Əliyev, N.Ə.Alışov, E.C.Abbasova və başqa tədqiqatçıların əsərləri və hesabatlarından istifadə edilmişdir.

Azərbaycanda xristianlığaqədərki dini təsəvvürlər və inanclar barədə fikirlər R.M.Vahidov, K.V.Trever, Z.İ.Yampolski, İ.İ.Meşşaninov, C.A.Xəlilov, N.İ.Rzayev, F.L.Osmanovun tədqiqatlarında və Azərbaycan tarixində yer almışdır.

IV-VII əsrlər Qafqaz Albaniyasının dini, mənəvi dünyagörüşü haqqında arxeoloji materialların tədqiqi sahəsində R.B. Göyüşovun, "Qafqaz Albaniyasında xristianlıq" adlı monoqrafiyası əhəmiyyətlidir. Müəllif Albaniyada aya sitayişlə əlaqədar ayinlərin tarixi köklərini arxeoloji materiallar əsasında tədqiq etmişdir.

R.B.Göyüşov, A.A.Ələsgərov, İ.M.Cəfərzadə, F.C.Məmmədova, K.V.Trever, M.İ.Artmanov, Z.M.Bünyadov, F.L. Osmanov və başqalarının əsərlərində Qafqaz Albaniyasının siyasi- inzibati, etnik, dini, kilsə ideologiyası, mədəniyyət məsələləri ümumi şəkildə tədqiq edilmişdir.

Cənubi Qafqaz ərazisində İslam dövrü tarixi - siyasi və mənəvi mədəniyyətinin tədqiqi ilə bağlı, M.S.Nemətova, "Azərbaycanda Pirlər" (Bakı, 1992), "Azərbaycanın epiqrafik abidələri"(Bakı, 1963) Rəfiqə Bəxtiyarovanın "Azərbaycanda ağac pirlər" (Bakı 2005) adlı monoqrafiyalarında müqəddəs yerlərin, "Pir"lərin təsnifatını verməklə yanaşı, onların sosial-siyasi mərkəzlər kimi fəaliyyətini müəyyənləşdirmiş, memorial epiqrafik abidələrin tədqiqi məsələlərinə geniş yer verməşdir.

Tədqiqat zamanı Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə", (Bakı, 2007) "Dinlər, təriqətlər, məzhəblər" (Bakı, 2007), N.M.Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan" (Bakı, 1993),

K.M.Məmmədzadə "Azərbaycan inşaat sənəti (IV-XVI əsrlər) (Bakı, 1978), Ə.R.Salamzadənin "Abidələr danışır" (Bakı, 1952), "Azərbaycanın memarlıq abidələri" (Bakı,1958), "Arazboyu abidələr" (Bakı, 1979) və digər elmi əsərlərdən, eləcə də etnoqrafik materiallardan istifadə edilmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işi yazılarkən mühüm mənbəşünaslıq bazası müəllifin toplamış olduğu çöl materiallarından, Gəncə-Qazax bölgəsindən əldə olunmuş maddi mədəniyyət nümunələrindən, tədqiqat əsərlərindən, elmi məqalələrdən, bölgədə aparılan arxeoloji qazıntıların hesabatlarından və müvafiq ədəbiyyatlardan istifadə edilmişdir. Araşdırma aparılarkən Azərbaycan tədqiqatçıları ilə yanaşı, türk, rus, alimlərinin tədqiqatları və müasir informasiya texnologiyası vasitələri olan elekron imkanlardan da istifadə edilmişdir.

**Dissertasiyanın təcrübi əhəmiyyəti.** Bölgənin ilk orta əsr alban dövrü məbədləri, orta əsrlər islam dövrü dini abidələri, türbələr, məscidlər, ziyarətgahlar, keçmişin tarixi izlərini özündə əks etdirən memorial abidələrin çoxu ateist ideologiyasının təsiri ilə dağıntılara məruz qalmışdır. Dissertasiyada bu abidələrin geniş tədqiqi gələcəkdə tədqiqatçıların onlardan istifadəsini asanlaşdırır.

-Dissertasiya işindən elmi əsərlər, çoxcildlik Azərbaycan tarixi, Azərbaycan arxeologiyası və memarlıq tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında;

-Ayrı-ayrı elmi – kütləvi kitablar, Azərbaycanın ilk orta əsrlər dövrü tarixinə və arxeologiyasına dair vəsaitlərin hazırlanmasında ;

-Dini abidələrin tarixi və təsnifatı müəyyən edilərkən, onun mənəvi mədəniyyətdə, o cümlədən, Azərbaycanın digər bölgələri üzrə müvafiq mövzularda yazılacaq dissertasiya işlərində;

-Tarix və memarlıq abidələrinin bərpası və qorunması işində;

-Ali məktəblərin müvafiq fakültələrində xüsusi kursların tədrisində;

- Dərs vəsaitlərinin hazırlanmasında;

- Arxeoturizmin inkişafında;

- Müvafiq sənədli filimlərin hazırlanmasında;

- Azərbaycan tarixi, arxeologiyası, etnoqrafiyası, incəsənət və memarlıq tarixinə dair mühazirələr kursu oxunarkən də dissertasiya işindən istifadə edilə bilər;

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu "İlk orta əsrlər arxeologiyası" şöbəsində hazırlanmış və həmin şöbədə digər şöbə əməkdaşlarının iştirakı ilə müzakirəsi keçirilmişdir. Tədqiq olunan problemlərin əsas məzmunu elmi nəşrlərdə dərc olunmuş məqalələrdə şərh edilmişdir. Bundan başqa, Azərbaycanda arxeoloji tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyalarda məruzələr edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, hər fəsil yarımfəsillərə bölünməklə, nəticə və istifadə edilmiş ədəbiyyat və ixtisar olunmuş sözlərin siyahısından ibarətdir. Dissertasiya işinə, dini abidələrin təsvirlərindən ibarət illüstrativ materiallar əlavə edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, tədqiqatın obyekti, məqsəd və vəzifələri, mövzunun mənbəşünaslıq bazası, problemin öyrənilmə vəziyyəti, tədqiqatın elmi yeniliyi, nəzəri metodoloji əsası, dissertasıyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

DissertasiyanınI fəsli **"Gəncə-Qazax bölgəsinin ilk orta əsr dini abidələrinin yayılma arealı və topoqrafiyası"** adlanır və iki yarımfəslə bölünərək tədqiq edilir. Bölgənin dini abidələrinin yayılma arealı Daşkəsən, Gədəbəy, Göygöl, Samux, Gəncə, Ağstafa, Qazax, Tovuz rayonlarının ərazilərini əhatə edir. Dini dünyagörüşün formalaşmasında və dini abidələrin meydana gəlməsində təbii-coğrafi şəraitin və əhalinin məskunlaşma dərəcəsinin də müəyyən əhəmiyyəti var idi. Adətən dini abidələr Xunan, Xalxal və s. kimi iri şəhərlərdə, əhalinin cəmləşdiyi yerlərdə salınsa da, bu fakta ticarət yollarının bu ərazidən keçməsi, müdafiə istehkamlarının etibarlılığı və s. kimi amilləri də əlavə etmək olur.

**Azərbaycanda ilk orta əsrlər dövründə konfessional durum və dini abidələrin meydana gəlməsi",** adlı yarımfəsildə dövrün sosisal -ideoloji məsələləri tədqiq edilmişdir. Qeyd etdiyimiz kimi, Azərbaycanın tarixi inkişaf xüsusiyyətləri, əhalisinin etnik tərkibi, burada müxtəlif dinlərin mövcudluğuna səbəb olmuşdur. Bütpərəstlik, atəşpərəstlik, xristianlıq, ölkədə yayıla bilmiş, biri digərinə təsir göstərmişdir. III əsrdən başlayaraq Azərbaycanın Sasani, Bizans və

Roma işğalçılarının siyasi savaş meydanına çevrilməsi, əhalinin dini mənəvi dünyagörüşünə də təsirsiz ötüşməmişdir. Xüsusilə, dini etiqadlar daima ictimai-siyasi quruluşların xüsusiyyətlərinə uyğun olaraq təkamül etmiş, totemistik, animastik və fetişistik zəmində dini görüşlər formalaşmış, daha sonrakı dövrlərdə isə dünyəvi-səmavi dinlər meydana çıxmışdır.

Mənbə məlumatlarına əsasən ilk xristian icmaları, eramızın əvvəllərindən (I-II əsrlərdə) Fələstində yaranmış Yerusəlimdən gəlmiş apostol (elçi, həvari), Faddey tərəfindən təbliğ olunur və Qafqaz Albaniyasında yayılmağa başlayır. Eramızın IV əsrindən, ölkədə xristianlığın yayılmasının ikinci mərhələsi başlandı. Bu dövrdə Anadolunun Qeysəri şəhərində xristian ailəsində anadan olmuş Qriqori, Ərməniyədə III Tridatı (286-332) xristianlığa sövq edir. Xristian dini ilk dəfə Alban hökmdarı Urnayır və alban feodalları, əyanları tərəfindən qəbul olunmuş, Müqqədəs Qriqori tərəfindən xaçaquran edilmişlər. IV əsrin əvvəllərində onu dövlət dini elan etmişdir. Xristianlıq Arsax və Kambisena vilayətində daha çox kök salmışdır. 552-ci ildə xristianlığın mərkəzi Çoladan Bərdəyə, VIII əsrdə isə Bərdədən onun yaxınlığında yerləşən Berdakura keçmişdir. Xristianlıq dini ölkədə yalnız IV əsrin əvvələrindən vətəndaşlıq hüququ qazana bilmişdir.

Tədqiqatlardan məlum olur ki, Alban kilsəsi bilavasitə Roma imperiya kilsəsinə tabe olmuşdur. Bu vəziyyət 451-ci ildə Xalkedonda çağrılmış IV Ümumdünya kilsə yığıncağından sonra, xristian aləminin Qərb və Şərq kilsələri arasında (monofizit, diofizit və nestorianlar arasında), ehkam mübarizəsinin başlanmasına qədər davam etmişdir.

Albanşünas alim F.C.Məmmədova qeyd etmişdir ki, "Konstantinapol patriarxına başqa tayfa və xalqların məskunlaşdığı Pont, Asiya və Frakiya yepiskoplarını təsdiq etmək hüququ verən, Xalkedon məclisinin qəbul etdiyi 28-ci qanun xristian aləmində böyük narazılığa səbəb oldu. Əslində bu qanun Yunan-Roma dünyasını parçaladı, bir çox Şərq kilsələrini imperiya kilsəsindən ayırdı.

Bundan sonra Albaniya, Gürcüstan və s. ölkələrdə xristian dini təlimlərini yaymaq üçün bütpərəstlik zamanı tikilmiş məbədlər dağıdıldı, kilsələr inşa etdirildi və həmin bölgələrə yepiskoplar göndərildi.

Dini konfessional durumla bağlı F.C.Məmmədova qeyd edir ki, “VII əsrin əvvəllərində (607- ci ildə) Gürcü kilsəsi rəsmi olaraq Xalkidon inancına keçdiyini elan edir. Bu ərəfədə gürcü Alban və Sünik kilsələri arasında dini konfessional yaxınlaşma başladı .

Qafqazşünas alim V.V.Bartolda görə həvari mənşəli kilsələr avtokefal hesab edilirdi. Belə ki, kilsənin avtokefallığını izah edən nöqteyi-nəzərlər, alban kilsəsinin erkən müstəqilliyindən inamla danışmağa imkan verir. Bu isə Alban kilsəsinin iyerarxiya baxımından erməni kilsəsinə aid olduğunu, alban kilsəsi başçısının erməni katalikosu tərəfindən təsdiq edildiyini iddia edən, erməni alimləri Y.A.Manandyan və S.T.Yeremyanın fikirlərinin əsassız olduğuna sübutdur.

Qafqaz Albaniyasında Müqəddəs Qriqorisin cəsədi tapıldıqdan sonra Alban çarı III Mömün Vaçaqanın zamanında, onun tərəfindən Albaniyada 365 xristian məbədi inşa edilmişdir. Albaniyada xristian dünyasında, o cümlədən Qafqazda ən qədim məbədlərdən biri olan avtokefal apostol kilsəsi var idi. Alban tarixçisi M. Kalankatuklunun məlumatlarına əsasən Giş (indiki Kiş) kəndini və oradakı məbədi Şərqin bütün kisələrinin başlanğıcı hesab etmək olar.

Qafqaz Albaniyasında xristianlığın dövlət dini olaraq qəbul edilməsinə qədər bu dövrdə atəşpərəstliyin təsiri güclü olmuşdur. Arxeoloji tədqiqatlar zamanı arxeoloqlardan, İ.H.Nərimanov, C.A.Xəlilov, R.M.Vahidov, Q.M. Aslanov Qazax, Mingəçevir və Abşeronda da atəşpərəstlik məbədlərinin olduğu haqqında ilk olaraq məlumat vermişlər.

Qazax rayonunun Sarıtəpə adlı yaşayış məskənində iki böyük bina qalığı və sütunaltlığı aşkar edilmişdir. Arxeoloji materialların təhlili, abidənin planı və bəzi memarlıq elementləri nəzərə alınmaqla onu Əhəməni satraplığının iqamətgahlarından biri kimi Əhəməni İranının tərkibində olan ilkin Alban dövrünə aid etmək olar. Sarıtəpə abidəsi də fikirimizcə dindən siyasi məqsədlə istifadə edən Əhəməni dövlətinin nüfuz dairəsinə daxil olan satraplıq ərazisi, o cümlədən də Şimali Azərbaycanda inşa etdilmiş atəşgahların oxşarı, məbəd atəşgahlardan biridir. Məbəd güclü yanğından məhv olmuşdur. Görünür, bu yanğın yerli dinlərin yad din atəşpərəstliyə qarşı apardığı mübarizəsi ilə bağlı olmuşdur.

Bu tip dini abidələrdən birinin sütunaltlığı Şəmkir rayonunun Qaracəmirli kəndi ərazisində də aşkar edilmişdir. Adı çəkilən abidələr bilavasitə mövzuya aid olmasa da ardıcıllığın izlənilməsi baxımından əhəmiyyətlidir.

**“Alban xristian abidələri”** adlı yarımfəsildə Gəncə-Qazax bölgəsinin, Qafqaz Albaniyasında xristianlığın ilk yayıldığı və möhkəmləndiyi ərazilərdən biri olduğu öz əksini tapır. Məbədlərin və qəbir abidələrinin çoxluğu nəzərə alınmaqla Alban xristian məbədləri elmi tədqiqata cəlb edilmişdir. Tədqiq olunan Alban dövrü xristian dini abidələri sırasına Qazax rayonunda Daş Salahlı kəndində Aveydağ məbədi (V–VIII əsr), Qazax rayonu Yuxarı Əskipara kəndində (VII–IX əsr) alban məbədi, Ağstafa rayonunda Keşikçidağ mağara monastrı, Tovuz rayonunda Yanıqlı məbədi (V–VI əsr), Torpaqqala alban məbədi, Əsrik Cırdaxan kəndindəki alban məbədi (V-VI əsr), Şəmkir rayonunda, Çaparlı məbədi (IV-V əsr), Gədəbəy rayonunda Pir Cavanşir məbədi (VII-VIII əsr), Əyrivəng məbədi, Mahrasa məbədi (V-VI), Çanaqçı məbədi (VIII-IX əsr), Govdu məbədi , Göygöl rayonunda Band (VI-VII əsr), Yeni Zod məbədləri (VI-VIII), Qarabulaq, Çaykənd, Meşəli məbədləri (VI–VII əsr) aid edilir.

Tədqiqatlar göstərir ki, erkən orta əsr xristian dini tikililərinin ən sadə tipini təşkil edən tağbənd örtüklü bir nefli məbədlər düzbucaqlı plandan ibarət olmuşdur. Araşdırmalara əsasən demək olar ki, Albaniyada Şərq xristianlığına məxsus memarlığın bütün növləri inkişaf etmiş olsada, bu bölgədə ilk dövrlər üçün tikintisi uzunsov ibadət zalı olan birnefli məbədlər üstünlük təşkil etmişdir.

Bölgədə mağara məbədlərin yaranması, təqiblərə məruz qalan təriqətlərin (politeizm, monoteizm) birinin digərini sıxışdırması ilə əlaqələndirilir. Şübhəsiz ki, bu təqiblərdə ərəb işğallarının da təsiri az olmamışdır. Tədqiqata cəlb olunan Keşikçidağ mağara-monasrt kompleksində aparılan tədqiqatlardan aydın olur ki, burada tarixi-mədəni dövrlərin müxtəlif inkişaf mərhələlərində yaşayış məişət amili birinci olmaqla, mədəniyyətlərin inteqrasiyası və sintezi mövcud olmuş, tarix boyu formalaşan dini ənənələr davam etdirilmişdir. Tədqiqiat zamanı bölgənin Alban dövrü xristian abidələrinin yerləşdikləri ərazilərdə aparılan arxeoloji qazıntılardan əldə edilən

maddi mədəniyyət nümunələri əsasında, Azərbaycanın digər bölgələrindəki məbədlərlə oxşar əlamətləri ortaya çıxarılmışdır.

II fəsil **"Gəncə-Qazax bölgəsinin orta əsr İslam dövrü dini abidələri"** adlanır. Bu fəsil beş yarımfəsildə tədqiq edilir. VII əsrin ilk illərində Yaxın və Orta Şərqin mədəni–siyasi həyatında köklü dəyişiklik baş verdi. Dünyanın üçüncü moneteist dini – İslam meydana çıxdı. İslam dini, ərazi və dini ideologiyada vahidlik prinsipinə əsaslanmışdır. Orta əsrlərdə İslam mədəniyyətinin tərkib hissəsi olaraq, inşa edilən məscidlər dini və dünyəvi elmlərin öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Bölgənin orta əsrlər dövrünə aid məscidlər, Yanıqlı məscidi ( XVII əsrə aid), Vahidli məscidi (XVII əsr), Şah Abbas məscidi (XVII əsr), Qırıxlı məscidi (XVII əsr), Qızılhacılı məscidi (XVII əsr), Ozan məscidi (XVIII əsr), Tatlar məscidi və s. Qeyd olunduğu kimi hər məhəllənin öz məscidi olmuş və məxsus olduğu məhəllənin adını daşımışdır.

**"İslam dini və maddi mədəniyyətdə yeni ünsürlərin yaranması"**adlı yarımfəsildə, orta əsrlərdə insan və digər canlıların məzar daşları üzərində əksinə icazə verilmirdi. Bu qadağalar həm allahın varlığına, onun qüdrətinə, yaradıcılıq gücünə şərik çıxılmasının yolverilməzliyindən, həm də əhalini köhnə bütpərəst adətlərindən uzaqlaşdırmaq məqsədindən irəli gəlirdi. Bu da İslam dininin yayılmasının ilk illərində əhalinin bütlərə itaətinin azaldılması, qeyri-insani əməllərdən çəkindirmək məqsədi daşıdığını söyləməyə imkan verir. VII əsrdə daha mürəkkəb siyasi problemlərin olduğunu nəzərə alsaq, görərik ki, bu məsələylə bağlı, hökm və qadağalara sonrakı mərhələlərdə yumşaq münasibət göstərilmişdir.

Maddi mədəniyyətdə, abidələr üzərində canlı təsvirlərin çəkilməsinə müəyyən bir dövr üçün məhdudiyyətlər qoyulduğundan, xüsusi əhəmiyyətə malik olan xəttatlıq sənəti yaranmışdır. Məscidlərin bəzədilməsində inşaat materialları (ağac, daş, gəc) üzərində olan müxtəlif bəzəklər İslam mədəniyyətindəki sükutu aradan qaldırmış, ənənəvi memarlıq xüsusiyyətləri saxlanılmaqla xəttatlıq mükəmməl sənət sahəsi olaraq inkişaf mərhələsini keçməsinə şərait yaratmışdır. Orta əsrlərdə ərəb əlifbasının müxtəlif xətlərindən istifadə edilərək, gözəl kitabə motivləri, həndəsi və nəbati ornamentləri olan bədii cəhətdən yüksək və səviyyəli bəzək ünsürləri yaradılmışdır. Bu cür

həndəsi və nəbati ornamentlərə bölgənin dini abidələrində də rast gəlinmişdir.

**"Məscidlər"** adlanan bu yarımfəsildə bölgənin orta əsr dini təyinatlı tikililərindən olan məscidlərin yaranma tarixi və sosial mərkəzlər olaraq tədqiqindən bəhs edilir. İslam dini ilk xəlifələr dövründə yayıldığı ərazilərdə müsəlmanların ibadət etməsi üçün məscidlər inşa etdirməyə başladı. Bölgədə yerləşən İmamzadə türbəsi orta əsrlər dövrünə dair məscidlər, Comərd-Qəssab məqbərəsi, Tovuz rayonunun Aşağı Öysüzlü kəndindəki məscid, Gəncədəki Şah Abbas məscidi (XVII əsr), Tovuz rayonu Yanıqlı kəndindəki məscid (XVII əsr), Vahidli məscidi (XVII əsr), Düz Qırıxlı məscidi( XVII əsr), Ozan, Qırıxlar məscidi, Qızılhacılı məscidi, Tatlar məscidi dini abidələri də bölgənin mənəvi mühiti haqqında aydın təsəvvür yaradır. Orta əsrlər dövrü məscidləri siyasi və dini sosial-ideoloji mərkəzlər olaraq fəaliyyətini davam etdirmişdirlər. Məscidlər yarandığı andan əhalinin əsas ibadət yeri namaz qıldığı müqəddəs məkan olduğu üçün əhali arasında böyük hörmət qazanmışdır. Məscidlərin müqəddəs məkan olduğu "Qurani-Kərim"in "Ət-Tövbə" surəsində öz əksini tapmışdır.

**"Memorial abidələr. Türbələr"** adlı yarımfəsildə bölgənin tarixi abidələrinin öyrənilməsi baxımından çox dolğun məlumatları özündə qoruyub saxlayan xatirə tipli tikililər araşdırılmışdır. İslam dövrü memorial abidələrindən olan Gəncədə İmamzadə türbəsi bölgənin mənəvi mühiti haqqında aydın təsəvvür yaratmağa imkan verir. I və II Şıxlı, Xanlıqlar, Hüseynbəyli, Aslanbəyli (Qazax rayonu), Aşağı Öysüzlüyü, Qazıqulu (Tovuz rayonu), İrmaşlı, Seyidlər, Baydar (Şəmkir rayonu), kəndləri orta əsr qəbristanlıqlarında günümüzədək gəlib çatmış türbələr tədqiqata cəlb edilmişdir. Türbələrin inşa tarixi XIV- XVIII əsrə aiddir. Bölgənin geniş yayılmış coxbucaqlı türbə nümunələri Borsunlu, Mollavəladmi, Səfikürd və Rəhimli kəndlərinin ərazisindəki qəbristanlıqlarda tədqiq edilmişdir.

Araşdırmalar zamanı bölgə üçün səciyyəvi olan qülləli türbələr, səkkizkünc türbələr, gümbəzli-qülləli türbələr tədqiq edilmişdir. Bütünlüklə, orta əsrlər dövrü məzarüstü xatirə türbələrinin forması, təsvirləri, habelə kitabələr, həndəsi ölçülər əsasında müəyyən edilmişdir. Dini tikililər üzərindəki kitabələrdən aydın olur ki, belə mərkəzlərin yaranması müsəlman şərqində yayılmış olan dini fəlsəfi

cərəyan olan sufiliklə də bağlılığı olmuşdur. İnşa edilmiş bu türbələrin içərisində böyük övliyalar, din xadimləri dəfn edildiyinə görə müqəddəs hesab edilirdi.

Qaynaqların verdiyi məlumatlara görə, ilk dəfə olaraq türbə Göytürklərdə və Uyğurlarda inşa edilmişdir. Daha sonra Orta Asiya türkləri və Samanilər türbə inşasını davam etdirərək başqa dövlətlərə də yaymışlar. Səlcuqlar zamanı isə insanın xatirəsini əbədiləşdirmək üçün türbə inşası böyük önəm almışdır.

**"Qəbirüstü sənduqələr və heykəllər"** adlı yarımfəsildə bölgənin orta əsrlər dövrünə aid daş sənduqələri, həmçinin xatirə tipli məzar daşları - at, qoç heykəlləri və s. haqqında yeni tədqiqatların nəticələrinə əsasən məlumat verilir. Tədqiqata cəlb edilən məzar daşları düzbucaqlı şəklində hazırlanmış, kənarları ensiz çərçivə ilə haşiyələnmişdir. Bu abidələrin bəzilərinin trapesiya şəkilli olduğu müəyyən edilmişdir.

Məlumdur ki, Gəncə-Qazax bölgəsinin orta əsr yaşayış yerlərinin ilkin inkişaf mərhələlərində, insanların düşüncəsində real həyat hadisələri ilə bağlı inaclar mövcud olmuşdur. Mifik və real təsəvvürlər insanların əmək fəaliyyəti, məişəti ilə bağlı olub, od, torpaq, bitki və astral təsəvvürlər sonrakı əsrlərdə də ənənə olaraq davam etdirilmişdir.

R.B.Göyüşov daşla bağlı inam və inanclardan bəhs edərək, Azərbaycanın bəzi bölgələrində Bakıda, Qarabağda, Gəncədə daşla bağlı bəzi inancların olduğunu qeyd etmişdir.

Gəncə - Qazax ərazilərində arxeoloji və etnoqrafik tədqiqatlar zamanı, daş qoç heykəllərin özünəməxsusluğu müəyyən edilmişdir. Belə ki, uzunluğu 80-90 sm, hündürlüyü 50-60 sm böyük olmayan bu heykəllər daşlarının sərtliyi ilə seçilir və özündə qədim sənət nümunələrini yaşatmışdır

Qazax rayonu ərazisində Birinci Şıxlı, Daş Salahlı, Poylu, Dağ Kəsəmən, Ülkməzli, Çaylı, Dəmirçilər kəndləri ərazisində rast gəlinən məzar daşları maraq doğurur. Bu bölgədəki məzar daşlarının hündürlüyü 4 metrə çatır. Daşların daha bədii görünməsi üçün, qırmızı tufdan yonulmuş və səliqə ilə oyulmuş ay, ulduz rəmzləri geniş çərçivələrdə yerləşdirilmişdir. Ərazidəki məzar daşları, digər bölgələrin məzar daşlarından üzərindəki emblem və rəmzi mahiyyət daşıyan ornamentləri ilə fərqlənir. Əsas etibarı ilə bu təsvirlər, zolaqlı

dairəni və üz-üzə durmuş iki və ya dörd qoç buynuzunu, qarmağabənzər ornament, at, məişət əşyaları, güləbdan, xəncər, qılınc elementlərini və.s. təşkil edir. Xüsusən bu dövrün qoç fiquruna Gədəbəy rayonu Kiçik Qaramurad kəndində, köhnə qəbristanlıq ərazisində rast gəlinir. Digər at və qoç təsvirləri olan məzar daşı, Tovuz rayonu ərazisində, Ağdam kəndi qəbristanlığının Alı– Dədə piri yanında tədqiq edilmişdir.

II fəslin beşinci yarımfəsli **"Ziyarətgahlar və pirlər"**adlanır. Əski türk inamında həyat ağacı yeraltı və yerüstü dünyanı, təbiət gözəlliyini, axirət və əbədi dünyanı anladır. Qədim Azərbaycanda həyat ağacı ən nəcib, ən yüksək ideyaların timsalı kimi, ölməzlik və daimi həyat rəmzi kimi tanınmışdır.

Gəncə-Qazax bölgəsində arxeoloji qazıntılar zamanı məişətdə istifadə edilən bəzi qablar, təsərrüfat küpləri üzərində ağac təsvirlərinə, bitkisəl naxışlara da rast gəlinmişdir. Ağac pirlərindən çinar, palıd, göyrüş, ardıc, qaraağac, saqqız ağacı, armud, alça ağaclarının adları ilə müqəddəsləşdirilmiş pirlər mövcuddur. Bitkisəl naxışlı daşlara Azərbaycanın digər ərazilərində də rast gəlinmişdir. Bu cür naxışlara arxeoloji qazıntılar zamanı Mingəçevirdə 2№li xristian məbədinin mehrabında da təsadüf edilmişdir. Mirəli Seyidovun fikrincə, haqqında söhbət açılan daş vaxtı ilə həmin yerdə yaşamış yerli albanların mifologiyası ilə bağlı olan məbədin inanc daşı imiş. Arxeoloji tədqiqatlar göstərir ki, günəşi simvolizə edən qrafik təsvirlər Göygöl rayonu ərazisində də tapılmışdır. Ağ maddə ilə bəzədilmiş, cilalı keramika nümunəsində günəş simvolu olan, iki svastika nişanı arasında həyat ağacının təsviri verilmiş, keramika nümunəsi aşkar edilmişdir.

Şərq mifalogiyasında müxtəlif inanclar vardır ki, onlardan biri də palıd ağacına təzim edilməsidir. Gəncə-Qazax bölgəsində, həmçinin Azərbaycanın digər rayonlarında günümüzədək palıd, dağdağan ağacları yerləşdiyi məkana görə "pir" sayılır.

Azərbaycanın ilk orta əsrlər dövrünə aid yaşayış yerləri və qəbir abidələrindən də arxeoloji qazıntılar zamanı dağdağan toxumu aşkar edilmişdir. Dağdağan ağacı piri Qazax rayonunun Yuxarı Əskipara kəndində, Fərəhli, Aslanbəyli, Pirli, İncə dərəsi, Gədəbəy rayonun Qaramurad kəndində köhnə köç yolları üzərində fövqəl gücə malik bir qüvvə kimi əhali tərəfindən ziyarət olunan inanc yeri olmuşdur.

Tədqiq edilən bölgənin pirləri bir qayda olaraq yerləşdiyi məkana görə dağlıq ərazi, köhnə qəbristanlıq və köç yolları üstündə mövcud olduğu müəyyənləşdirilmişdir.

Z.İ.Yampolski qeyd etmişdir ki, daş "Meqalit" tikili adlanan və daşdan tikilib məbədə bənzəyən müxtəlif qədim tikintilər sitayiş yeri idi. Bu tip tikililər Didvan yaxınlığında, "Qara inək zağası", "Qurban kəsilən zağa (Qazax rayonunda), Çovdar kəndi yaxınlığındakı pir (Daşkəsən rayonu), "Qağnıxac"(Gədəbəy rayonu) pirləri əhalinin əsrlərlə ənənəvi ziyarət yerinə çevrilmişdir. Pirlərdə ruhlara–allahlara müxtəlif qurbanlar verilirdi.

Daşın şəfaverici xüsusiyyətlərə malik olması, insanın əcdadının daş olduğuna, daşdan yarandığına inam "dağ kultu" böyük ata, böyük xaqan kimi mənalandırılması əski türk xalqlarından qaynaqlanır. "Dağ kultu" Göy tanrı inancıyla bağlıdır. Mərkəzi Asiyada dağların adları müqəddəs mənaları verən Xan Tanrı, Buzdağ ata, Uduk, Art, Kutdağ adları ilə yad edilmişdir. Çinlilərin Tyan-şan dedikləri Tanrı Dağı Hunların müqəddəs saydıqları yerlərdən biri hesab edilmişdir.

Azərbaycanda dağ inancı ilə bağı məkanlar Əshabi-Kəhf (Naxçıvan), Qara Kaha (Qubadlı), Diri Baba (Şamaxı) və.s mağara ziyarətgahlar mövcuddur.

Gəncə-Qazax bölgəsində imam Əli adıyla bağlı Haça Qaya ziyarətgahı orta əsr inanc yerlərindəndir. Dini ədəbiyyatlarda və şifahi xalq yaradıcılığında fövqəl gücə, qeyri-adi formaya malik olan, "Qırat", Peyğəmbərin "Burak", "Raf-raf", imam Əlinin "Dül-dül"ü kimi atların olduğu göstərilir. Azərbaycanda "Dül-dül" adlı atın ayaq izləri mövcuddur. Cornan (Daşkəsən rayonu), Beşbarmaq dağında (Siyəzən rayonunda), Səbətlər kəndində (Quba rayonunda) atın ayaq izlərinin olduğu yerlərə inanılır. Hazırda minlərlə insan bu ocağlara pənah gətirir, dərdlərinə şəfa tapacaqları yerlər kimi ziyarət edirlər. Bu mənada pirlər insanların keçmişdən bu günə daşıdıqları xalq mistikasıdır. Məkanı və ərazisində öz quruluşuna, formasına görə seçilə bilən bu təbiət abidələri (daş və ya ağac) əski çağlardan canlı varlıqların o məkana və mistikaya istinadən sığındıqları yerlər olmuşdur.

Bu yarımfəsillə bağlı fikirlərimizə yekun olaraq bölgənin bəlli pirlərini məzmun etibarı ilə şərti olaraq aşağıdakı kimi təsnifatlandırmaq olar: a) daş və ağac pirləri ruhlar məskəni kimi,

yəni əcdadlara inamla bağıllığı nəzərə alınmaqla; b) daş və ağac pirləri şər qüvvələrə qarşı mübarizə obyekti rolunu oynaması; c) daş və ağac pirləri niyyətlərin hasil olunmasında, bir vasitə kimi. Araşdırmalar göstərir ki, əslində ziyarətgahlar–pirlər istər orta əsr, istərsə də sonrakı dövrlərdə insanların sıx toplaşdığı yerlər olaraq, daim diqqət mərkəzində olmuşdur.

III fəsil **"Gəncə-Qazax bölgəsinin orta əsr dini abidələrinin memarlıq xüsusiyyətləri"** adlanır və iki yarımfəsildən ibarətdir. Gəncə- Qazax bölgəsinin ilk orta əsr alban xristian və orta əsr İslam dövrü dini abidələri bir sıra memarlıq xüsusiyyətləri – binanın əsas tikinti kütləsi və üzlük örtüyünə ayrılması, üzləmə bloklarının işlədilməsi, gövdənin karkas sxemi, hər yandan fasadlı olması, şirli kərpiclərin istifadə edilməsi, epiqrafikanın rolunun artması ilə maraq doğurur. Aran vilayəti və şimal–qərb inşaat sənətinin çay daşlarından və bişmiş kərpicdən ibarət olan qarışıq tikinti texnikası, hörgünün əsas növü kimi qalmaqda idi.

Araşdırmalardan aydın olur ki, qədim memarlıq ənənələri ilə İslamdan gələn xüsusiyyətlər, Aran memarlığı ilə Naxçıvan memarlığı arasındakı yaxınlıq, hər şeydən əvvəl eyni inşaat materialının tətbiqi ilə müəyyən edilmişdir. Memarlığın əhəmiyyətli xüsusiyyətlərindən biri də, divar hörgüsünün səciyyəvi olmasıdır. Gəncə - Qazax bölgəsinin memarlıq üslubunda bu hörgü çaydaşının ətrafını çərçivələyən kərpic şəklində təzahür etməsidir .

III fəslin birinci yarımfəsili **"İslamaqədərki sitayiş təyinatlı dini tikililərin inşaat xüsusiyyətləri"** adlanır. Aparılan arxeoloji tədqiqatlar sübut edir ki, memarlıq nəzəriyyəsində, təbiətə uyğunluq aspektləri, bədii–estetik obraz anlayışı, həndəsi riyazi qanunauyğunluq, diqqət mərkəzində saxlanılmışdır.

Qafqaz Albaniyasında xristianlığın qəbul edilməsi ilə əlaqədar olaraq bölgədə mərkəzi günbəzli və bazilika üslubunda sitayiş qurğuları inşa edilmişdir. Tədqiqatlar göstərir ki, bölgənin ilk orta əsrlər alban xristian dini tikililəri quruluşuna görə bir nefli, üç nefli və xaçvari tipli məbədlər düzbucaqlı konstruksiyadan ibarət olmuşdur. Bölgənin Qazax rayonunda Avey məbədləri, Əskipara məbədləri, Tovuz rayonu ərazisindəki Torpaqqala məbədi, Gədəbəy rayonu Pir Cavanşir məbədi, Əyrivəng məbədi ilk orta əsr Alban dövrü dini memarlıq abidələrinin nümunələrindən hesab edilir. Arxeoloji

tədqiqatların nəticələrinə əsasən demək olar ki, quruluşuna görə xristian abidələri şərq-qərb istiqamətində düzbucaqlı planda inşa edilirdi. Bir qayda olaraq qapı yeri qərbdən, istisna hallarda cənubdan, mehrab hissə isə tikintinin şərqində inşa olunmuşdur. Dini abidələrin yerləşdiyi ətraf ərazidə aparılan arxeoloji qazıntılara əsasən belə qənaətə gəlmək olar ki, ilk orta əsr xristian abidələri erkən bütpərəstlik tikililəri ilə böyük oxşarlığa malik olmuş və sonrakı tarixi dövrlərdə tikilmiş kilsələrdən kəskin şəkildə fərqlənmişdi. Alban xristian memarlığı strukturunda kainatı təcəssüm etdirən həndəsi qanunauygunluq əsas götürülmüşdür Mərkəzi gümbəzli kilsələrdə, dini tikilinin plan–məkan və fəza həllində, dini təsəvvürlərə üstünlük verilmişdir. Arxeoloji tədqiqatlar və müşahidələrə əsasən söyləmək olar ki, bölgənin dini memarlıq abidələri, ayrı-ayrı dövrlərdə dini ideologiyanın tələblərinə uyğunlaşdırılmışdır.

İlk orta əsrlərdə ənənəvi dini memarlıq abidələrinin plan–məkan, həcm–fəza və element tərtibatında istifadə edilən həndəsi fiqur və formalar (üçbucaq, düzbucaq, dairə, kub, sfera, silindir) orta əsrlər dini binalarının həcmi quruluşunun əsasını təşkil etmişdir. Tədqiqatlardan aydın olur ki, formaların seçilməsinin həm funksional, həm də rəmzi mənaları olmuşdur. Bu isə kainatı və sonsuzluğu ifadə etmişdir.

**"İslam dövrü dini tikililərin memarlıq xüsusiyyətləri"** adlı yarımfəsli dini abidələrin tipoloji və memarlıq xüsusiyyətlərinin tədqiqindən ibarət olmuşdur. Dini təyinatlı binalar bu dövrdə əsasən məhəllə məscidləri, xanəgah, imamzadə, zaviyə, xristian məbədləri ilə səciyyələnmişdir. Araşdırmalardan aydın olur ki, məscidlərin inşasında mehrab, minarə, minbər əsas elementlərdir. İslamın ilk dövründə yaradılan məscidlər planına görə düzbucaqlıdır. Məscidlərin mehrabları önündə günbəzli salonun - məqsurənin olması, səlcuq dövrünün monumental dini tikililəri üçün səciyyəvi olduğundan Arran memarlığına da öz təsirini göstərmişdir.

Bölgənin dini tikililərinin, memarlıq naxışları XI-XIV əsrlərdə bişmiş kərpicdə, daşda, XV-XVIII əsrlərdə çoxrəngli kaşıda, ağacda, gəc üzərində təkmilləşdirildi. Arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət nümunələrində bu xüsusiyyət öz əksini tapmışdır. Beləki, orta əsrlər İslam memarlığının mütərəqqi cəhətlərindən olan nəfis ornament bəzəyinə, kaşı sənətinə tikilinin daxili tərtibatınada

xüsusi fikir verilirdi. Kaşı bəzəyi-göy rəngli şirli kərpiclər Səlcuq imperiyasının başlıca memarlıq mərkəzlərində təqribən XII əsrdə meydana gəlmişdir.

Gəncə-Qazax bölgəsinin dini əhəmiyyətli tikililərində kitabə motivləri yaradılarkən nəbati, həndəsi ornamentlərdən və nəfis bəzək ünsürlərindən peşəkarlıqla istifadə edilirdi.

Aparılan arxeoloji tədqiqatlardan aydın olur ki, bu bölgənin türbələri yerli tikinti materiallarından asılı olaraq əhəng daşı və yaxud kərpiclə, bəziləri isə çay daşı ilə bişmiş kərpicin qarışığından hörülmüşdür. Yerli inşaat materiallarından istifadəyə üstünlük verilmişdir. Bunun nəticəsidir ki, Şirvan-Abşeron, eləcə də dağlıq və dağətəyi Qarabağın türbələri əhəng daşı, Aran Qarabağının, Gəncə və onun ətrafının, Milin və Muğanın türbələri bişmiş qırmızı kərpiclə, bəzəkləri isə firuzəyi rəngli kaşıdan istifadə edilərək tikilmişdir. Bu xüsusiyyətlər Bərdə türbəsi, Naxçıvanda Qarabağlar, Gəncə İmamzadəsi və s. türbələrdə öz əksini tapmışdır. Bölgənin türbələri kimə məxsus olmasından aslı olaraq müxtəlif memarlıq quruluşuna malikdir. Gəncə-Qazax bölgəsindəki orta əsr türbələri öz memarlıq quruluşuna görə, kəsikdə küp və ya çoxbucaqlı formada olmuşdur.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqata yekun vurularaq qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsi haqqında ümumiləşdirici məlumatlar verilmişdir. Belə ki, yazılı mənbələr, arxeoloji materiallar, araşdırmalar göstərir ki, Albaniyada xristianlığın rəsmiləşməsi və formalaşması dövründə biri digərini təqib edən təriqət anlaşılması (diofizit, monofizit, nestorian) mövcud olmuşdur. Tədqiq etdiyimiz dövr göstərir ki, Alban kilsəsi yarandığı və xristian dininin dövlət dininə çevrildiyi vaxtdan IV əsrdən başlayaraq VII əsr daxil olmaqla, tam müstəqil kilsəyə malik olmuşdur. Bölgədə yayılan alban xristian abidələrinin ayrı-ayrı dövrlərdə dini ideologiyanın tələblərinə uyğunlaşdırılması tədqiqat zamanı müəyyən edilmişdir.

Bölgənin orta əsr İslam dövrü dini abidələrinin tədqiqində məscid, türbə, ziyarətgahlar, müqəddəs hesab edilən dini-mənəvi mahiyyət daşıyan inanc yerləri olmaqla, eyni zamanda cəmiyyətin sosial-iqtisadi, ictimai əlaqələrinin inkişafına təsir edən əsas amillərdən olmuşdur. Şübhəsiz ki, İslam dininin meydana gəlməsi və Azərbaycanda yayılması ilə ziyarətgahların xarakter və obyektinin

dəyişməsi baş versədə, inanc yerlərində icra edilən mərasimlərin əksəriyyəti, əvvəlki forma və mahiyyətini özündə saxlaya bilmişdir. Qəbirlər üzərindəki başdaşı, sənduqə, at, qoç, heykəllərin daşdan qoyulmasının özü də orta əsrlər daş inancı ilə bağlı olmuşdur. Beləki, əski inanclara görə ruhun bu daşların köməyi ilə bəd qüvvələrdən qorunacağı düşünülürdü. Üzərində qılınc, yəhərli at təsvirləri olan ərazidəki məzar daşları, digər bölgələrin məzar daşlarından üzərindəki emblem və rəmzi mahiyyət daşıyan ornamentləri ilə fərqlənir.

Bölgənin dini tikililərində, memarlıq naxışları nümunələri orta əsrdə bişmiş kərpicdə, daşda, XIV-XVIII əsrlərdə çoxrəngli kaşıda, ağacda, gəc, üzərində təkmilləşdirilmişdir. Bişmiş kərpic, kərpic mozaika, kəsmə kaşı, narıncı kərpicin relyefində yazılır, ağacdan və digər materiallardan, pəncərə şəbəkə mozaikası geniş tətbiq edilmişdir. Yekun olaraq belə bir nəticəyə gəlinmişdir:

1)Arxeoloji qazıntıların və elmi ədəbiyyatların verdiyi məlumatların nəticələrinə əsasən Gəncə-Qazax bölgəsinin ilk orta əsrlər dövrünün tarixi-siyasi coğrafiyasında Qafqaz Albaniyasının tərkibində olması sübut olunur;

2) Gəncə-Qazax bölgəsinin cografi relyefi nəzərə alınmaqla dini abidələrin yayılma arealı, yaranma amilləri, forma və tipləri müəyyənləşdirilmişdi;

3) Bölgənin orta əsr İslam dövrü dini memarlıq abidələrinin yerləşdiyi müxtəlif tip yaşayış yerlərində aparılan arxeoloji qazıntıların nəticələrinə əsasən bu dövr ərzində keçdikləri inkişaf yolu, iqtisadi və mədəni inkişafında oynadığı rolu aydınlaşdırılmışdır;

4)Bölgədəki dini təyinatlı memarlıq abidələrinin tipoloji təsnifatı verilərkən, inşaat və memarlıq xüsusiyyətləri aydınlaşdırılmış, Azərbaycanın digər həmdövr, bölgə dini abidələri ilə oxşar və fərqli cəhətləri nəzərə alınmaqla müsbət təsirlərin olduğu və bölgəyə məxsusluğu müəyyən edilmişdir;

5) Gəncə-Qazax bölgəsi dini abidələrinin ətraf ərazilərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin digər bölgələrin həmdövr abidələri ilə müqaisəli təhlili aparılmış, ilk dəfə olaraq tarixi- arxeoloji və etnoqrafik materiallar əsasında öyrənilərək elmi ictimaiyyətə təqdim edilir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının nəşr olunmuş məqalələrində öz əksini tapmışdır.**

1. Qazax bölgəsinin Əskipara kəndindəki alban xristian məbədləri və onların arxeoloji tədqiqi haqqında // Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, Bakı 2013, № 2, səh 76 – 79
2. Göygöl bölgəsinin ilk orta əsr dini abidələri //Gəncə Dövlət Universitetinin elmi xəbərlər toplusu. Gəncə-2013, № 3 səh 221 -223
3. Gəncə - Qazax bölgəsinin ilk orta əsr bəzi Ay məbədləri və xristian abidələri haqqında //Tarix və onun problemləri jurnalı, Bakı 2015, №1, səh 329 – 335
4. Ağstafa bölgəsinin Alban xristian dini abidələri //Qafqaz tarixinin aktual məsələlərinə həsr olunmuş II Beynəlxalq elmi – praktik konfransın materialları, II hissə, Gəncə 15 -16 oktyabr 2015, səh 349 – 352
5. Gəncə - Qazax bölgəsinin İslam dövrü abidələrinin arxeoloji materiallar əsasında tədqiqinə dair //Tarix və onun problemləri jurnalı, Bakı 2016, №2 səh 313 -320
6. 
б архитектурной структуре некоторых албанских религиозных памятников первого среднего века Гянджа – Газахского региона (на аснове археологических материалов) //Науковий вi сник збiрник наукових праць Випуск 107 ( № 4) Украiна, Кiев, 2016, ст. 161 -164

**Д.С.Юсифова**

# СРЕДНЕВЕКОВЫЕ РЕЛИГИОЗНЫЕ ПАМЯТНИКИ ГЯНДЖА-ГАЗАХСКОГО РЕГИОНА
## РЕЗЮМЕ

Диссертация посвящена изучению средневековых религиозных памятников Гянджа-Газахского региона. Исследование состоит из введения, трех глав, заключения, списка использованной литературы, сокращений и иллюстратци.

Во «Введении» обоснованы актуальностьтемы, цель и задачи, определены хронологические рамки, объект и предмет исследования, показаны теоретическая, методологическая и источниковедческая база, научная новизна, научно-практическое значение диссертации.

Первая глава «Ареал распространения и топография раннесредневековых религиозных памятников Гянджа-Газахского региона» разделена на две подглавы. В главе исследованы «Конфессиональное положение и возникновение раннесредневековых религиозных памятников Азербайджана» и «Албанские христианские памятники». Приводится подробная информация об ареале распространения религиозных памятников, а также изучены албанские христианские памятники.

Вторая глава «Средневековые религиозные памятники исламского периода Гянджа-Газахского региона» разделена на пять подглав, «Создание новых элементов в исламской религии и материальной культуре», «Мечети», «Мемориальные памятники. Мавзолеи», «Надгробные памятники и скульптуры», «Святые места и пиры».

Третья глава «Архитектурные особенности средневековых религиозных памятников Гянджа-Газахского региона» разделена на две подзаглавы- «Конструктивные характеристики религиозных зданий до исламского периода» и «Архитектурные особенности религиозных зданий исламского периода». В главе дан сравнительный анализ конструктивных особенностей религиозно-архитектурных памятников Гянджа-Газахского региона с монументальными памятниками других регионов Азербайджана.

В «Заключении» диссертации обоснованы научные результаты исследования .

***D.S.Yusifova***

# MEDIEVAL RELIGIOUS MONUMENTS OF GANJA-GAZAKH REGION
## SUMMARY

Dissertation work was dedicated to the research of the medieval religious monuments of Ganja-Gazakh region. The dissertation work consists of the introduction, three chapters, conclusion, the list of the used scientific literature, the illustrations which have added to the text part.

In the introduction it deals with the topicality of the theme, sources, level of its studying, chronological frame, scientific novelty, the method of research, approbation and structure.

I chapter is called “The spreading areal and topography of the early medieval religious monuments of Ganja-Gazakh region” and consists of two sub-chapters like as “Confessional situation and creation of religious monuments in the early medieval period in Azerbaijan”. The spreading areal of the historical-archaeological religious monuments of the region and researched early medieval Albanian temples had been investigated.

II chapter called “Medieval Islamic period religious monuments of Ganja-Gazakh region” and divided into sub-chapters like as “Islam religion and creation of new beginings in the material culture”, “Mosques”, “Memorial monuments, tombs”, “Tombstones and statues”, “Sanctuaries and sacred places”. In this chapter medieval Islamic monuments, mosques, tombs, horse and ram statues was researched.

III chapter called “Architectural characteristics of medieval religious monuments of Ganja-Gazakh region” and researched sub-chapters like as “Building characteristics of religious monuments until Islam”, “Architectural characteristics of Islamic period religious buildings”. Also, was given characteristics of architectural characteristics of religious-architectural monuments, comparative analyses with other monuments of Azerbaijan and was taken off

generalization. In the conclusion of the dissertation work it was totally given common information about the researches.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

*На правах рукописи*

**ДУРДАНА САХЛАДАР КЫЗЫ ЮСИФОВА**

# СРЕДНЕВЕКОВЫЕ РЕЛИГИОЗНЫЕ ПАМЯТНИКИ ГЯНДЖА-ГАЗАХСКОГО РЕГИОНА

**5505.02- Археология**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ- 2017**